ATMU-KTŞ-Ə(KTŞ)-01

Dəyişikliklər haqqında məlumat			
Tarix	**Versiya**	**Tərtib etdi**	**Dəyişikliyin izahı**
01.02.2023	1	Faina Qaçabəyova Sara Bağırlı	ATMU-da psixoloji xidmətin təşkili prosesinin hüquqi tənzimlənməsi məqsədilə formalaşdırılıb

"Təsdiq edirəm"
Azərbaycan Turizm və Menecment Universitetinin rektoru

_____ İ.İ.Mədətov

_____ 2023-cü il

Azərbaycan Turizm və Menecment Universitetində
Psixoloji xidmətin göstərilməsi
ƏSASNAMƏSİ

I. Ümumi müddəalar

1.1. Psixoloji xidmət Azərbaycan Turizm və Menecment Universitetində (bundan sonra, ATMU) təhsilalanların akademik nailiyyətlərinin artırılması, onlarda müsbət davranış modelinin formalaşdırılması, təhsil müəssisəsində təhlükəsiz və sağlam mühitin yaradılması, təhsilalanların mənəvi-psixoloji sağlamlığının dəstəklənməsi və ailə-təhsil müəssisəsi münasibətlərinin tənzimlənməsindən ibarətdir.

1.2. Psixoloji xidmət göstərilən zaman Psixoloji yardım haqqında Azərbaycan Respublikasının qanunu, Təhsil müəssisələrində psixoloji xidmətin təşkili qaydaları, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyinin aidiyyatı üzrə əmr, təlimat və Kollegiya qərarları, ATMU-nun Nizamnaməsi, digər müvafiq qanunvericilik aktları, psixoloji və sosial fəaliyyət sahələrində mövcud olan müvafiq normativ hüquqi aktları, ATMU Elmi Şurasının aidiyyatı qərarları, ATMU rektorunun əmr və göstərişləri və bu Əsasnamə rəhbər tutulur.

1.3. Psixoloji xidmət rektorun qərarı əsasında təşkil edilir və rektor tərəfindən təyin edilən psixoloq tərəfindən icra edilir.

1.4. Xidmətin icrasını həyata keçirən mütəxəssis rektora tabedir, öz fəaliyyəti barədə yarımillik və illik hesabatı rektora və Elmi Şuraya təqdim edir və ehtiyac olduğu halda ATMU-nun digər struktur bölmələri ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

II. Psixoloji xidmət fəaliyyətinin əsas məqsədi

2.1. Psixoloji xidmətin təşkilində əsas məqsəd psixoloji maarifləndirmə çərçivəsində kompleks tədbirlərin həyata keçirilməsi, psixoloji müayinə çərçivəsində sistemli tədbirlərin həyata keçirilməsi, psixoloji profilaktika çərçivəsində qabaqlayıcı tədbirlərin görülməsi və bu istiqamətdə müvafiq tövsiyələrin hazırlanması, psixoloji konsultasiya çərçivəsində təhsilalanların inkişafına köməklik göstərilməsi, müsbət münasibət formalaşdırılması, riskli davranışın, zərərli vərdişlərə aludəçiliyin qarşısının alınmasıdır.

III. Psixoloji xidmət fəaliyyətinin təşkili

3.1. Psixoloji xidmət işi iki formada təşkil edilir:

3.1.1. Ümumi xidmətlər – buraya təhsil müəssisəsi ilə dəyərləndirmələr, potensial risklərin müəyyənləşdirilməsi, qabaqlayıcı profilaktik xidmətlər və ailə-təhsil müəssisəsi əməkdaşlığının dəstəklənməsi kimi məsələlər daxildir.

3.1.2. Xüsusi xidmətlər – buraya hər bir təhsilalana münasibətdə inkişaf planının hazırlanması, təhsilalanlarda sosial, emosional davranışın formalaşdırılması və dəstəklənməsi kimi məsələlər daxildir.

3.1.3. Psixoloji xidmət praktiki psixoloqiya ilə məşğul olan kvalifikasiyalı peşəkar psixoloq tərəfindən həyata keçirilir. O, özünə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların təmin edilməsi üçün məsuliyyət daşıyır.

3.1.4. Psixoloq öz fəaliyyətini ATMU rektoru tərəfindən təsdiq olunmuş vəzifə təlimatlarına əsasən və tədris prosesinin nizamına mane olmayaraq həyata keçirir.

3.1.5. Psixoloji xidmətin təşkili məqsədilə psixoloqun əsaslandırılmış müraciəti əsasında maddi-texniki təchizat təmin edilir, görüşlər keçirmək, konsultasiya və korreksiyaedici tədbirlər aparmaq üçün avadanlıq və didaktik materiallarla təchiz edilmiş psixoloji xidmət kabineti formalaşdırılır.

3.1.6. Psixoloji xidmət ATMU-nun bütün tədris binalarında həyata keçirilir.

3.1.7. Xidmətin icrasını həyata keçirən mütəxəssis öz fəaliyyəti, göstərilən yardımlar (imtahanqabağı psixoloji xidmət, gündəlik psixoloji xidmət, təhsilalanların adaptasiyası dövründə psixoloji xidmət, xroniki xəstəlikli şəxslərlə psixoloji xidmət və s. kimi) barədə məlumatı sistemləşdirməklə yazılı prosedurlar hazırlayır.

3.1.8. Hər il təhsil müəssisəsinin rəhbəri tərəfindən psixoloqun illik fəaliyyət planı təsdiq olunur.

IV. Psixoloji xidməti göstərən mütəxəssisin hüquq və vəzifələri

4.1. Psixoloji xidməti icra edən psixoloq aşağıdakı hüquqlara malikdir:

4.1.1. Bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsi ilə əlaqədar səlahiyyətləri daxilində ATMU strukturlarına, ATMU-nun tabeliyində olan hüquqi şəxs statuslu qurumlara müvafiq qaydada sorğular ünvanlamaq, vəzifə və funksiyaların yerinə yetirilməsi üçün zəruri olan məlumatları müvafiq struktur(lar)dan almaq.

4.1.2. Fəaliyyət istiqamətlərinə uyğun rəy vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, müvafiq sahə üzrə tədqiqatlar aparmaq, təkliflər hazırlamaq.

4.1.3. Zəruri hesab etdiyi halda (cinayət tərkibli, şəxsin özünə və cəmiyyətə zərər verə biləcəyi hallarda) təhsilalanların valideynlərini və ya məsul şəxsi məlumatlandıra bilər.

4.1.4. Sosial təhlükəli vəziyyətdə olan, zərərli vərdişlərə meyilli təhsilalanlarla bağlı qərarların qəbul edilməsi məqsədilə təhsil müəssisəsinin rəhbərliyi və Elmi Şura qarşısında təkliflərlə çıxış etmək.

4.1.5. Fəaliyyət dairəsinə aid edilmiş məsələlərlə bağlı səlahiyyətləri daxilində ATMU-nu dövlət orqanları, yerli özünüidarəetmə orqanları, hüquqi və fiziki şəxslər qarşısında təmsil etmək.

4.1.6. Pedaqoji-psixoloji biliklərin təbliği sahəsində iş aparmaq.

4.1.7. ATMU-da və digər dövlət qurumlarında yaradılmış komissiyalarda, işçi qruplarında, fəaliyyətinə aid məsələlər üzrə keçirilən müxtəlif səviyyəli yerli və beynəlxalq tədbirlərdə ATMU-nu təmsil etmək.

4.1.8. Təhsilalanların psixoloji ehtiyaclarını müəyyənləşdirilmək məqsədilə aidiyyatı strukturların dəstəyi ilə sorğular aparmaq, təlim, seminarlar təşkil etmək.

4.1.9. Səlahiyyətləri çərçivəsində xidməti yazışmalar aparmaq.

4.2. Psixoloji xidməti icra edən psixoloq aşağıdakı vəzifələri icra edir:

4.2.1. Psixoloji xidməti təşkil edən psixoloq fakültə dekanlıqları və kafedralarla əlaqə yaradır, tələbələr haqqında zəruri məlumatları toplayır və bu əlaqələrin müntəzəmliyini təmin edərək təhsildə geri qalan, o cümlədən psixoloji xidmətə ehtiyacı olan tələbələri müəyyənləşdirərək problemləri təyin edir və bu tələbələrlə psixoloji iş aparır.

4.2.2. Təhsilalanlarla və psixoloqa müraciət edən şəxslərlə aparılan işlərdə psixologiyanın etik qaydalarına riayət edilir və anonimliyə xüsusi diqqət edilir. Anonimlik yalnız cinayət tərkibli, ya da şəxsin özünə zərər verəcəyi təqdirdə pozula bilər.

4.2.3. Azərbaycan Respublikasının Əmək Məcəlləsinə uyğun olaraq müəyyən edilmiş iş vaxtı çərçivəsində psixoloq tərəfindən təhsilalanlara, təhsilverənlərə fərdi və ya qrup şəklində psixoloji yardım göstərilir, təhsilalanların psixoloji ehtiyacları və problemləri haqqında zəruri hallarda onların valideynləri və ya digər qanuni nümayəndələri məlumatlandırılır.

4.2.4. Təhsilalanların ehtiyac hiss etdikləri mövzular müəyyənləşdirilir, bu mövzuda təlim və seminarlar, fərdi və qrup terapiyaları təşkil edilir.

4.2.5. Yardım göstərilən təhsilalanların hüquqlarına, şərəf və ləyaqətinə hörmətlə yanaşılır.

V. Psixoloji yardım alan şəxslərin hüquq və vəzifələri

5.1. Psixoloji yardım alanların (tələbə və ya əməkdaş) aşağıdakı hüquq və vəzifələri müəyyən edilir:

5.1.1. Peşəkar və ixtisaslı psixoloji yardım almaq;

5.1.2. Hüquqları, psixoloji problemin xarakteri, tətbiq edilən psixoloji yardım metodları haqqında məlumat almaq;

5.1.3. Psixoloji yardım göstərən şəxslə əməkdaşlıq etmək;

5.1.4. Özünün və ya başqalarının həyatı və sağlamlığı üçün təhlükə yaradan halların mövcudluğu haqqında dərhal xəbər vermək.

VI. Yekun müddəalar

6.1. Bu Əsasnamə ATMU-nun Elmi Şurasının qərarı ilə rektor tərəfindən təsdiq edilir.

6.2. Əsasnaməyə əlavə və dəyişikliklər ATMU-nun Elmi Şurasının qərarı ilə rektorun təsdiqi əsasında edilir.

6.3. Bu Əsasnamədə nəzərdə tutulmayan məsələlər qanunvericiliklə və ATMU-nun Nizamnaməsi ilə tənzimlənir.

6.4. Azərbaycan Respublikasının qanunvericiliyi, ATMU-nun Nizamnaməsi ilə bu Əsasnamənin müddəaları arasında ziddiyyət yaranarsa, birincilər üstün hüquqi qüvvəyə malikdirlər.

Hazırki Əsasnamə 14 fevral *2023cü il tarixli Elmi Şura iclasında* 4 *№-li protokolla təsdiq olunmuşdur*